# Uğur hekayələri

# OLİMPİADA HƏYƏCANI, MEDAL SEVİNCİ

## Beynəlxalq Kopernik Olimpiadasında

## ABŞ-dən 6 qızıl medalla qayıdan məktəblilərimiz

**Xəbər verdiyimiz kimi, ABŞ-nin Nyu-York şəhərində Kolumbiya Universitetində keçirilən Beynəlxalq Kopernik Olimpiadasında məktəblilərimiz 6 qızıl, 20 gümüş və 10 bürünc medal qazanıblar. Olimpiadada iştirak edən qızıl medalçılarımız öz təəssüratlarını "Azərbaycan müəllimi"nin oxucuları ilə bölüşüblər.**

İlk həmsöhbətimiz olan **Cavid Mehdiyev** Bakı şəhəri Akademik Zərifə Əliyeva adına liseyin 11 sinfində təhsil alır. 2024-cü il onun üçün uğurlu olub. Çünki o, bu mötəbər olimpiadanın beynəlxalq turunda qızıl medala layiq görülüb. Medalçımız onun üçün həlledici olan anlarda yaşadığı hissləri bizimlə bölüşərək dedi: "Kopernik Olimpiadasında iştirak edəndə qürur hissi keçirirdim. Başqa cür ola da bilməzdi. Çünki 16 yaşlı bir gənc olaraq Azərbaycanı belə bir bilik yarışmasında təmsil etmək mənim üçün ən böyük xoşbəxtlik idi.

Qızıl medal qazananda yaşadığım həyəcanlı anlar isə sözlə ifadə olunması mümkün olmayan dərəcədə yaddaqalan oldu. Qızıl medalçılar siyahısında "Javid Mehdiyev — Gold" yazılanda auditoriyada oturan hər kəs bizim üçrəngli bayrağımızı gördü və o an mən yenə də fəxarət hissi keçirdim. Yeri gəlmişkən, keçən ay Dubayda keçirilən FISO inglis dili olimpiadasında da mən dünya birincisi oldum. 2023-cü ildə isə "Math Challenge" riyaziyyat olimpiadasında qızıl medal qazandım. Uğurlarım məni hədsiz ruhlandırır və öz üzərimdə daha çox çalışmağa sövq edir. Bilik də idman kimidir, gərək çox əziyyət çəkəsən. Sevincimi ilk dəfə üzərimdə əziyyəti olan valideynlərimlə bölüşdüm.

### "Elmə necə bağlıyamsa, idmana da elə bağlıyam"

Qeyd edim ki, mən paralel olaraq musiqi məktəbini də bitirmişəm. Bizim milli musiqilərimizi və ən əsası muğamlarımızı tar alətində yaşadıram. O qədər tara bağlıyam ki, ABŞ-yə gedəndə onu da özümlə apardım. İfalarım dostlarım tərəfindən maraqla qarşılandı, həm də xarici vətəndaşlar bizim milli dəyərlərimizdən, musiqilərimizdən xəbərdar oldular.

İdmanın mənim uğurlarımda əvəzolunmaz rolu var. Çox gözəl deyiblər ki, sağlam bədəndə sağlam ruh olar. Üzgüçülük, basketbol, futbol, tennis və s. idman növləri ilə mütəmadi olaraq məşğul oluram. Dərslərimin vaxtımın çox hissəsini aldığına baxmayaraq, məktəbdə idman yarışmalarının da fəal iştirakçılarından biriyəm. Voleybol və basketbol komandalarının kapitanıyam. Mənim üçün idman da bir elmdir. Elmə necə bağlıyamsa, idmana da elə bağlıyam".

### "Üçrəngli bayrağımla səhnəyə çıxdım"

**Eltun Abdullayev** Bakı şəhəri 287 nömrəli Zəkalar liseyinin şagirdidir. Birinci sinifdən bir çox yarışmalara, olimpiadalara, intellektual yarışlara qatılmağı sevən şagird olub. Özünün söylədiyinə görə, beş yaşından toplamanı, çıxmanı, hətta vurma cədvəlini də bilirmiş. Hələ ibtidai sinifdə təhsil alarkən məntiq və riyaziyyat fənləri üzrə bilik yarışmalarında dəfələrlə birinci yerə çıxıb, kubok və diplomlarla təltif olunub, yüzdən çox sertifikat qazanıb.

Gəlin, uğurları barədə Eltun Abdullayevin öz dilindən eşidək: "İbtidai sinif müəllimim Səadət Salahovanın uğurlarımda böyük rolu var. 5-ci sinifdən olimpiadalara qatılıram. Lütfi Zadə adına məntiq olimpiadasında, fənn müsabiqələrində, respublika fənn və beynəlxalq olimpiadalarda medallar qazanmışam.

7-ci sinifdə oxuyanda Sinqapurda keçirilən SASMO olimpiadasının fərdi riyaziyyat, qrup riyaziyyat yarışmalarında gümüş, məntiq qrup yarışmasında isə bürünc medal qazanaraq 3 medalla vətənə qayıtmışam.

Növbəti səfərim 8-ci sinfin birinci yarım ilində Vyetnamda keçirilən FIMO olimpiadasına olub. Bu bilik yarışmasının final mərhələsində iştirak etdim və gümüş medal qazandım. Nəhayət, 14-18 iyul 2024-cü il tarixlərində ABŞ-nin Kolumbiya Universitetində keçirilən Kopernik Olimpiadasının final mərhələsində iştirak etdim. İmtahan çox çətin və maraqlı məntiq suallarından ibarət idi. Mən özümü itirmədən bilik və bacarığımdan istifadə edərək imtahan verdim və uğur qazandım. Mükafatlandırma tədbirində böyük səhnədə adımı eşidəndə sevincimin hədd-hüdudu yox idi. Üçrəngli bayrağımla səhnəyə çıxdım — alqışlar, həmin ab-hava, bir sözlə, möhtəşəm idi. Mən bu uğurlarıma görə, ilk növbədə, valideynlərimə təşəkkür edirəm. Məni belə vətənpərvər ruhda böyütdükləri üçün çox xoşbəxtəm".



### "Uğurlarımın başlıca səbəbkarı anamdır"

Eltun, eyni zamanda kiçik yaşlarından voleybol, basketbol, futbol, şahmat, karate, cüdo və s. idman növləri ilə məşğul olub. Bir çox nailiyyətləri, diplom və kəmər dərəcələri də var. Hazırda üzgüçülüklə məşğul olur. İngilis dilinə də marağı böyükdür. Mütəmadi olaraq ingilis dilini akademik səviyyədə öyrənir və ingilis dilində bədii əsərlər mütaliə edir.

O deyir ki, xoşbəxt övladam ki, anam riyaziyyat müəllimimdir: "Mənim uğurlarımın başlıca səbəbkarı məhz anamdır. Başda anam olmaqla bütün müəllimlərimə təşəkkürümü bildirirəm. Təhsilimi xarici ölkədə davam etdirmək istəyirəm, yaxşı mütəxəssis olmaq ən böyük arzumdur".

Digər qızıl medalçımız, Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin 10-cu sinif şagirdi **Turab Haqverdiyev** deyir ki, uşaqlıqdan dəqiq fənlərə maraq göstərib. Olimpiadalarda iştirakı da kiçik yaşlarından başlayıb. O, ibtidai sinifdə oxuyarkən məktəbdaxili yarışlara qatılaraq qalib olub. İlk uğuruna 5-ci sinifdə imza atıb. Belə ki, Kenquru Beynəlxalq Riyaziyyat Olimpiadasında respublika birincisi olub. Bu günədək fərqli fənlər üzrə bir çox olimpiadalarda iştirak edib. Müxtəlif illərdə respublika fənn müsabiqəsi olimpiadaları və beynəlxalq olimpiadalarda qızıl, gümüş, bürünc medallar qazanıb.

### "İnanırdım ki, qızıl medal qazanacağam"

Turab deyir: "Kopernik Olimpiadasına qatılarkən nəticə əldə edəcəyimi bilirdim, çünki sualları cavablandıranda nəticədən qismən məlumatlı olursan. İnanırdım ki, qızıl medal qazanacağam. Amma dünya üçüncülüyünü gözləmirdim. Bu, mənim üçün də gözlənilməz oldu və çox sevindim. Azərbaycanı təmsil etmək və onun bayrağını ucaltmaq qürurverici idi.

Gələcəkdə İT sahəsi üzrə süni intellekt mütəxəssisi olaraq ixtisaslaşmaq istəyirəm və xaricdə təhsil almağı düşünürəm. Başda informatika olmaqla, riyaziyyat və fizikaya xüsusi marağım var. Proqramlaşdırma mənim üçün gələcək ixtisas seçimim olmaqdan əlavə hobbim də sayılır. Hazırda *talentigo.net* saytını inkişaf etdirmək məqsədilə təşkil olunmuş təcrübə programında Front-End Developer olaraq fəaliyyət göstərirəm. Həmçinin bir dostumla birgə olimpiadaçılara dəstək məqsədilə *olimpus.az* saytını qurmuşuq və sayt hazırda fəaliyyətdədir.

Boş vaxtlarımda dostlarımla gəzib əylənməyi, xarici dildə elmi-fantastik janrda filmlər izləməyi xoşlayıram. Yeni tərdis ilindən olimpiadalarda iştirak etməyə də davam edəcəyəm".

### Dünya ikincisi

Uğurlarından söz açan qızıl medalçımız **Sadıq Sadiqli** isə Bakı Avropa Liseyinin 7-ci sinfini bitirdiyini deyir. 2023-cü ildə FISO IQ olimpiadasında gümüş, IMEC olimpiadasında (riyaziyyat üzrə) qızıl, AMO və SASMO olimpiadasında qızıl, Sinqapur şəhərində keçirilən SIMOC final olimpiadasında bürünc, Teneagle olimpiadasında (ingilis dili üzrə) qızıl, 2024 FISO IQ olimpiadasında qızıl, 2024-cü ildə "Math Challenge" olimpiadasında (riyaziyyat üzrə) gümüş, Kopernik Olimpiadasından gümüş, Teneagle olimpiadasında bürünc medallar qazanıb. Kangaroo Sience olimpiadasında Azərbaycan üçüncüsü olub.

Bu il isə ABŞ-nin Nyu-York şəhərinin Kolumbiya Universitetində keçirilən Kopernik final Olimpiadasından qızıl medal qazanıb və dünya ikincisi olub: "Ən çox riyaziyyat və ingilis dili fənlərini sevirəm. İngilis dilində çoxlu ədəbiyyatlar oxuyuram. Hələ ki, gələcəkdə hansı peşəni seçməyimə qərar verməmişəm. Bu, yəqin ki, həkimlik və təbiət elmləri ilə əlaqəli bir sahə olacaq. Qızıl medal aldığımı biləndə ilk sevincimi anamla bölüşdüm. Dostlarım çoxdur. İdmanın üzgüçülük növü ilə məşğul oluram. Asudə vaxtlarımda müxtəlif daha çətin leqoları toplamağı xoşlayıram, kolleksiya toplamaq isə hobbimdir".

### "Azərbaycan bayrağını ABŞ-də dalğalandırmaq böyük şərəf idi"

"Adım dünya ikincisi kimi çəkiləndə sevincimin hədd-hüdudu yox idi. Çox həyəcanlandım. Azərbaycan bayrağını ABŞ-də dalğalandırmaq mənim üçün böyük şərəf idi".

Kopernik Olimpiadasının beynəlxalq turundan qızıl medal qazanan **Murad Ağazadə** Bakıdakı Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin 8-ci sinif şagirdidir. Qızıl medalçı deyir ki, olimpiadada sadəcə olaraq bir az həyəcan hissi keçirib. Azərbaycanın daxilində uğurları olduğu kimi, xarici ölkələrdə də uğurları çoxdur. Dubayda keçirilən FISO olimpiadasında iştirak edən Murad öz bilik və bacarığını nümayiş etdirərək uğurlu nəticə əldə edib. Bu günə kimi o, 13 qızıl, 12 gümüş, 3 bürünc və bunlarla yanaşı, 2 "diamond" medallara layiq görülüb. Kimya və Azərbaycan dili fənlərini sevir.

Xaricdə təhsilini kimya mühəndisliyi və tibb sahəsində davam etdirməyi düşünür. Murad Ağazadə həftədə 4 saat olimpiadalara vaxt sərf etdiyini bildirir. Düşünür ki, növbəti tədris ilində olimpiadalara qatılmaq, üçün əzmlə çalışmalı, vaxtından səmərəli istifadə etməlidir. Deyir ki, hər uğurunun arxasında yuxusuz gecələr, əzmkarlıq dayanır. Əlbəttə ki, çox çalışmalıyam, lap çox…

### "Böyük qələbə idi, alqışlar yağışına bürünmüşdüm"

Digər qızıl medalçı Bakı Beynəlxalq Məktəbin şagird **Tamerlan Həsənzadədir:** "Düzü inanmırdım ki, qızıl medal qazanacağam. Yaxşı hazırlaşmışdım, amma çox həyəcanlı idim. Qızıl medala sahib olduğumu biləndə sevincimin hədd-hüdudu olmadı. Sevincimi valideynlərimlə bölüşdüm. Böyük qələbə idi, alqışlar yağışına bürünmüşdüm. Dostlarımla Nyu-York şəhərinin gəzməli, görməli yerlərini ziyarət etdik. Şəhərin ən hündür göydələni olan Summit Vanderbilteyə qalxdıq Nyu-Yorkun ən gözəl mənzərəsinə tamaşa etdik. Əcnəbi dostlarıma Azərbaycanın təbiəti, florası və faunası haqqında ətraflı söz açdım. Ölkəmizin tarixi, mədəniyyəti və incəsənəti barədə danışdım. Qeyd edim ki, bilik yarışmalarına qatıldığım müddətdə SAMSO-da qızıl, AMO-da gümüş, IMO-da bürünc medallar qazanmışam.

2025-ci ildə də Kopernik və SASMO Beynəlxalq olimpiadalarının növbəti turunda iştirak edəcəyəm. Çalışacağam ki, adım qaliblər sırasında olsun. Ən çox sevdiyim fənlər tarix, ədəbiyyat və dəqiq elmlərdir".

**Sifai SƏFƏROVA**

## 56-cı Beynəlxalq Kimya Olimpiadasında




21—30 iyul tarixlərində Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində təşkil olunmuş 56-cı Beynəlxalq Kimya Olimpiadasında (IChO 2024) məktəblilərimiz uğurla çıxış ediblər.

84 ölkə üzrə 297 şagirdin iştirak etdiyi beynəlxalq müsabiqədə 4 məktəbli ilə təmsil olunan komandamız 1 gümüş və 3 bürünc medal qazanıb.

Sözügedən olimpiadada Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin XI sinif şagirdi Şərifzadə Səttar gümüş medala, Bakı şəhəri Kimya, biologiya təmayüllü Respublika liseyinin X sinif şagirdləri Xəlilzadə Murad və Mustafazadə Ümid, həmçinin Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin XI sinif şagirdi Hacızadə Nihad bürünc medala layiq görülüblər.

## 4-cü Avropa Qızlar İnformatika Olimpiadasında

21—27 iyul tarixlərində Niderland Krallığının Veldhoven şəhərində 4-cü Avropa Qızlar İnformatika Olimpiadası (EGOI 2024) təşkil edilib.




56 ölkədən 194 məktəbli qızın iştirak etdiyi olimpiadada şagirdlərimiz 2 bürünc medal və 1 həvəsləndirici mükafat qazanıblar. Sözügedən olimpiadada Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin IX sinif şagirdi Rahidil Bayramlı və Bakı Modern Təhsil Kompleksinin XI sinif şagirdi Nigar Hacıyeva bürünc medala, Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin X sinif şagirdi Ayan Kərimova həvəsləndirici mükafata layiq görülüblər.

Qeyd edək ki, 2017-ci ildən informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi "Azercell Telekom" MMC-nin dəstəyi ilə həyata keçirilir. Bu müddət ərzində ölkə üzrə fərqli yaş qruplarından olan şagirdlərimiz müxtəlifmiqyaslı proqramlaşdırma müsabiqələrində ümumilikdə 72 medal əldə ediblər.

## Beynəlxalq Fizika Olimpiadasında




**21—29 iyul tarixlərində İran İslam Respublikasının İsfahan şəhərində keçirilmiş Beynəlxalq Fizika Olimpiadasında (IPhO 2024) məktəblilərimiz ölkəmizi uğurla təmsil ediblər.**

İsfahan Texnologiya Universitetində təşkil olunmuş olimpiadada 46 ölkədən 230 məktəbli bilik və bacarığını sınayıb.

Nəzəri və praktiki turlardan ibarət olan olimpiadada Azərbaycan məktəbliləri 1 gümüş və 1 bürünc medal, 2 həvəsləndirici mükafat əldə ediblər. Belə ki, Kaspi liseyinin X sinif şagirdi İbrahim Valehli gümüş medala, Quba şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Murad İsmayılov bürünc medala, "Ankara məktəbi" məktəb-liseyin XI sinif şagirdi Rəvan Nəcəfli və Akademik Zərifə Əliyeva adına liseyin XI sinif şagirdi Adil Səttarov olimpiadanın həvəsləndirici mükafatına layiq görülüblər.